# Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsi fəaliyyətini genişləndirir

Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsi nəzdində 1 uşaq incəsənət, 7 uşaq musiqi məktəbi, 1 MKS və 8 filial, 1 rayon, 3 kənd mədəniyyət evi, 1 Dövlət Rəsm Qalereyası, Ü.Hacıbəyovun ev-muzeyi fəaliyyət göstərir. Göründüyü kimi, bütün sahələrdə olduğu kimi, Azərbaycanın siyasi və sosial-iqtisadi həyatının bütün sferaları kimi mədəniyyət sahəsi də davamlı və sürətli inkişaf edir. Uğurlu tədbirlər nəticəsində vətənimiz bəşəriyyətin dinamik mədəni inkişafının ayrılmaz parçasına çevrilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illər üçün Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin yaxşılaşdırılması üzrə inkişaf Proqramı"nda prioritet istiqamətlər kimi müəyyən edilmiş, məktəblərin modernləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, mövcud məktəb binalarının təmir olunması, kadr potensialının möhkəmləndirilməsi, təhsilin məzmunca yeniləşdirilməsi, tədris proqramlarının və müvafiq dərs vəsaitlərinin əldə



edilməsi və s. bu kimi mühüm vəzifələrin yerinə yetirilməsi sahəsində iş 2013-2014-cü tədris ilində davam etdirilmişdir. Şöbədə görülən işlər öz bəhrəsini vermişdir. Şöbənin tabeliyində olan musiqi məktəblərinin şagirdləri respublikada keçirilən mədəni-kütləvi tədbirlərin qalibi olmuşlar. Təkcə onu qeyd etmək lazımdır ki, Astarada keçirilən Xan Şuşinskiyə həsr olunmuş muğam müsabiqəsində şuşalı şagirdlər qalib və laureat adına layiq görülmüşlər. Fərəhlə qeyd olunmalıdır ki, şöbə musiqi məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də mühüm işlər görmüşdür. Bununla əlaqədar Şuşa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri, təcrübəli mədəniyyət işçisi Zahid Abbasovla söhbət edərkən o, bildirdi ki, musiqi məktəblərinin maddi-texniki bazasını möhkəmləndirmək üçün hesabat dövründə məktəblərə 8 ədəd pianino, 50 ədəd parta, 10 ədəd kitab şkafı, 20 ədəd tar, qarmon, nağara, səsgücləndirici və s. alınaraq şagirdlərin istifadəsinə verilmişdir. Şöbə müdiri bildirdi ki, 22 ildən çoxdur ki, Şuşa mədəni irsini qoruyub saxlayır, xarici ölkələrdə mədəni irsini təbliğ edir. Elə bunun nəticəsidir ki, son 5 ildə şöbə beynəlxalq və respublika əhəmiyyətli bir çox tədbirlər hazırlayıb həyata keçirilir.

1993-cü ildən başlayaraq şöbə hər il "Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir" mövzusunda elmi-praktik konfranslar hazırlayıb həyata keçirir. Konfransların materialları kitab şəklində çap edilmişdir.

Rəsm qalereyasının eksponatları da günü-gündən zənginləşir. Belə ki, indi burada 800-dən çox eksponat nümayiş etdirilir. Xalça muzeyində 300-dən çox xalça nümayiş etdirilmişdir.

Şöbədə özfəaliyyətin inkişafına da böyük diqqət yetirilir. Təkcə onu qeyd etmək lazımdır ki, bu günlərdə "Qarabağ" xalq çalğı alətlərinin yaradılması bunun aydın təzahürüdür. Şöbənin özfəaliyyət kollektivləri tez-tez xarici ölkələrdə zəngin proqramlarla çıxış etmişdir. Rayon mərkəzi kitabxanasında da müəyyən işlər görülmüşdür. Kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək üçün bura kompüterlə tam təmin olunmuş, yeni stellaj və kataloq alınaraq kitabxanaya verilmişdir, 2 yeni filial açılmışdır. Şəki şəhəri yaxınlığında yeni salınmış Çələbixan qəsəbəsində Xəlfəli kənd kitabxanasının filialı açılmış, az bir müddətdə kitabxana 2000 nüsxə kitabla təmin olunmuşdur. Buraya yeni kompüterlər və qeyri-yeni inventarlar verilmişdir. Şöbə müdiri Zahid Abbasov onu da qeyd etdi ki, cari ilin 6 ayında da şöbə çox böyük nailiyyətlər əldə etmişdir. Belə ki, ilin əvvəlindən şöbə və bütün müəssisələri elektron imzaya keçmişlər. Mədəni-kütləvi və klub tədbirlərinin keçirilməsinə diqqət artırılmışdır. Belə ki, Malbəyli, Quşçular, Sarıbaba kənd mədəniyyət evlərində bir çox klub tədbirləri hazırlanıb həyata keçirilmişdir. Bundan başqa şöbə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tələbələrin marağına səbəb olan "Şuşa tarixi abidələr şəhəridir" adlı sərgi təşkil etmişdir. Bundan başqa, "AİTF-2015" Beynəlxalq Turizm Sərgisi çərçivəsində də yaxından iştirak etmişdir. Şöbə



burada Şuşa mətbəxindən olan şirniyyatları nümayiş etdirmişdir. Fərəhləndirici haldır ki, sərgidə respublika Prezidenti İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da iştirak etmişdir.

Zahid müəllim onu da qeyd etdi ki, ölkəmizin şərəfinə qızıl hərflərlə yazılmış I Avropa Oyunlarının açılış mərasimində iştirak edən musiqiçilərin 18 nəfəri şuşalı musiqiçilər olmuşdur. Bütün bunların nəticəsidir ki, kollektivin 2 üzvü (R.Əliyev və Z.Abbasov) Beynəlxalq Mədəniyyət Təşkilatı olan TÜRKSOY-un yubiley medalına layiq görülmüşlər.

Şöbənin fəaliyyətində kütləvi təqvim və mədəni tədbirlərin keçirilməsi də mühüm yer tutur. Məsələn, 8 Mart Beynəlxalq Qadınlar günü, Novruz bayramı, Xocalı soyqırımı, 20 Yanvar faciəsi, Şuşa şəhərinin işğalı günü, 28 May – Demokratik Cəmiyyətin yaranması günü, 15 iyun – Milli Qurtuluş günü, 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi günü və sairə tədbirlərin təşkili və keçirilməsi bu qəbildəndir.

**Zabit CAVADOV,**
**"Respublika".**